## *POLİTOLOGİYANIN QENDER ASPEKTLƏRİ*

Müəlliftərtibatçı: Orduxanova F.Ş. – Qərb Universitetinin politologiya kafedrasının müəllimi

Elmi redaktor: Bağırov H.S. – Qərb Universitetinin politologiya kafedrasının müdiri, professor

Rəyçilər: Axundov A.B., fəlsəfə elmləri namizədi
Əliyeva M.M., tarix elmləri namizədi

## *GİRİŞ*

Fəlsəfi və təbii elmlər üzrə tədqiqatlar və publisistika həmişə qadın və kişilərin bərabərliyi probleminə müraciət etmişdir. 20-ci əsrin ikinci yarısı siyasi həyatın yeni fonemenini – qadınların fəal şəkildə siyasətə cəlb olunmasını, onların öz hüquqları uğrunda, diskriminasiyanın aradan götürülməsi və cinsi əlamətə görə seqreqasiya mübarizəsinin güjlənməsini dünyaya nümayiş etdirdi. Bu proseslər cəmiyyətdə mövcud olan və ictimai yüksəlişə mane olan stereotipləri laxlatsa da, bütövlükdə hələlik sosial mövqelərin kökündən yerdəyişməsinə gətirib çıxarmamışdır.

21-ci əsrin astanasında kişilər praktiki olaraq bütün sahələrdə üstünlük təşkil edir, qadınların isə qərar qəbul olunmasındakı iştirakı olduqca aşağıdır. Bizim ölkəmiz üçün belə qeyri-bərabərliyin yaratdığı problemlər xüsusən aktualdır, çünki ənənəvi olaraq burada patriarxal münasibətlər hökm sürür və qadının siyasətə cəlb olunması bir qayda olaraq neqativ reaksiyaya səbəb olur. Diskriminasiyanın aradan qaldırılması, cəmiyyətdə şəxsiyyətin özünü reallaşdırması, onun sosiallaşması üçün nisbətən bərabər şəraitin yaradılması qender tədqiqatları sahəsində elmi baza yaratmadan və onu inkişaf etdirmədən, siyasi mədəniyyəti artırmadan mümkün deyil. Qender problemlərinə müraciət, tələbələr arasında qender tədqiqatlarının öyrədilməsi, biliklərin sistemləşdirilməsi, qenderin, onun müxtəlif aspektlərinin öyrənilməsi sahəsində layihə və proqramların hazırlanması bu istiqamətdə atılan vacib addımlardandır.

Proqramın məqsədi qender araşdırmalarının inkişafına təkan vermək, qender nəzəriyyəsinə dair baza anlayışlarının, qender probleminin və siyasətinin öyrənilməsi vasitəsi ilə onları tətbiq etməkdir. Proqram həmçinin sosial-siyasi fikrin tarixinə nəzər salmaq, dünyanın müxtəlif ölkələrində qender probleminin daha yaxşı dərk olunması və ölkəmizdə onun xüsusiyyətlərinin araşdırılması üçün kişi və qadınların siyasətdə iştirakının müqayisəli təhlilini vermək məqsədi güdür.

Proqram tematik plandan, kursa dair mövzulardan və tövsiyə olunan ədəbiyyatdan ibarətdir. Buraya politologiya sahəsində ixtisaslaşan tələbələr üçün nəzərdə tutulan 36-saatlıq kursun məzmunu aiddir.

## TEMATİK PLAN

| Mövzular | | Saatların miqdarı | | |
|---|---|---|---|---|
| | | Cəmi | Mühazirələr | Seminarlar |
| 1. | Qender anlayışı və siyasət elmində onun yeri | 6 | 4 | 2 |
| 2. | «Qender və siyasət» probleminin sosial-siyasi fikir tarixində əks olunması | 6 | 4 | 2 |
| 3. | Siyasi hakimiyyət, onun daşıyıcıları – qender aspekti | 6 | 4 | 2 |
| 4. | Siyasətdə iştirakın qender problemləri | 6 | 4 | 2 |
| 5. | Qender və siyasi institutlar | 6 | 4 | 2 |
| 6. | İnsan hüquqlarının qender araşdırmaları | 4 | 4 | |
| 7. | Siyasətdə cinslərin qeyri-bərabər təmsil olunması probleminin optimal həll yolları | 2 | | 2 |
| CƏMİ | | 36 | 24 | 12 |

### MÖVZU № 1. Qender anlayışı və siyasət elmində onun yeri

Qender, qender eyniliyi, qender təbəqələşməsi, qender stratifikasiyası, qender ideologiyası anlayışları. Əsas fəlsəfi sualların, həmçinin ən aktual sosial və siyasi problemlərin qender ölçüləri.

Qender texnologiyası. Diskriminasiya məhfumu, cinsi əlamətə görə diskriminasiya. Cins sosial, mədəni və tarixi kateqoriya kimi.

İctimai elmlər sistemində qenderin rolu və yeri. Qender və siyasət. Politologiyanın qender aspektlərinin öyrənilməsinin məqsədi. Qender nəzəriyyəsinin inkişaf perspektivləri və problemləri.

Azərbaycanda cinslərin iqtisadi, siyasi və sosial bərabərsizliyinin xarakteristikası, bunun səbəbləri və kökləri: ailə-məişət, sosial, psixoloji, hökm sürən mədəni stereotiplər, ehtiyatların qeyri-bərabər bölüşdürülməsi, cinslərin sosiallaşması ilə bağlı olan maneələr, dini amilin rolu.

### MÖVZU № 2. «Qender və siyasət» probleminin sosial-siyasi fikir tarixində əks olunması

Qender tədqiqatlarının mənbələri, inkişaf əsasları. Antik müəlliflərin (Platon, Aristotel, Fukidid) əsərlərində kişi və qadının sosial mövqeyinin bölünməsi haqqında təsəvvürlər. İlk alim-qadınlar Hepatiya, Teaniya və başqaları. Qadınların siyasətdə iştirakı məsələsinə dair fikirlər.

Orta əsr müəlliflərinin əsərlərində qender aspektləri. Humanizm və İntibah ideyalarının insanın sosial rolları haqqında təsəvvürün dəyişməsinə, qender aspektinin əks olunmasına təsiri.

Liberalizm və Maarifçilik nəzəriyyələri insan hüquqları və qadın hüququ, qadının siyasətdə iştirakı haqqında. Feminist nəzəriyyələrin meydana gəlməsi və

evolyusiyası. Uollstounkraftın «Qadın hüquqlarının müdafiə manifesti», Oliviya de Qucun «Qadınların və qadın vətəndaşların hüquq deklarasiyası». Feminizmin liberal (Stüart Mill), marksist (Engels, Bebel, Kolontay, Setkin), radikal (Frimen, Fayertoun) və sosialist aspektləri. Antifeminist nəzəriyyələr.

20-ci əsr politologiyasında qender yanaşmasının inkişafı. «Qender və siyasət» probleminin Azərbaycanın sosial-siyasi fikrinin inkişafında əks olunması: tarix və müasirlik.

**MÖVZU № 3. Siyasi hakimiyyət, onun daşıyıcıları – qender aspekti**

Hakimiyyətə güc təcəssümü və yalnız kişi işi kimi yanaşma. İctimai şüurda və siyasi praktikada hakimiyyət səlahiyyətlərinin bölünmə sxemi (kişi – hökmün subyekti, qadın – onun obyekti olaraq). Qadın və kişilərin hakimiyyət nüfuzuna sahib olmaqda və onu saxlamaqda qeyri-bərabər imkanları problemi. Hakimiyyət ehtiyatlarının (hər şeydən əvvəl güc ehtiyatlarının) qeyri-bərabər bölüşdürülməsi problemi.

Qender və siyasi liderlik. Elitanın toplanması və və mövcudluğunda cinsi mənsubiyyətin təsiri. Kişi və qadın – hakimiyyət səlahiyyəti və siyasi idarəetmənin xarakterində və üslubundakı fərqlər.

Proteksiya və patriarxat konsepsiyası və siyasi hakimiyyət. «Hakimiyyət» anlayışını kişi və qadınlar necə başa düşür (müvafiq olaraq «power over” və “empowerment»). Qadın və hakimiyyət Azərbaycan cəmiyyətində. Sosiomədəni amillərin Azərbaycan qadınının hakimiyyətə daxil olmasına təsiri. İctimai şüurun dəyişməsi qadınların hakimiyyət səlahiyyətinə nail olmaq yolundakı subyektiv maneələrin aradan qaldırılmasının vacib amili kimi.

**MÖVZU № 4. Siyasətdə iştirakın qender problemləri**

20-ci əsrdə siyasətdə iştiraka kişi işi kimi baxmaq fikrinin dəyişməsi. Feminizm – nəzəriyyədən praktikaya. Qadın hərəkatları və ilk qadın təşkilatları. Liberal feminizmin birinci və ikinci dalğaları. Fəhlə qadın hərəkatı.

Sufrajizm siyasi qadın azadlığının əsas mənbəyi kimi. Qadınların seçki hüququna malik olmaq amilinin onların siyasi fəallığına təsiri. Cinsin siyasətdə iştirakın xarakterinə və formasına təsiri. Siyasətdə iştirak və siyasi fəaliyyət: qender aspekti. Qadınlar arasında siyasətdə iştirakın konvensional formalarının üstünlük təşkil etməsi. Azərbaycan qadınlarının zəif siyasi fəallığının səbəbləri. Kişi və qadınların seçkilərdə və seçki kampaniyalarında iştirakının nisbəti. Müxtəlif ölkələrdə kişi və qadınların siyasətdə iştirakının müqayisəli təhlili.

Azərbaycanda qadınların siyasi fəallıq problemi: tarixi aspekt. Azərbaycanda ilk qadın təşkilatları. Azərbaycan qadınlarının inqilabi hərəkata cəlb olunması. Seçki hüququna maliklik (ADR), təhsilin inkişafı. Sovet dövründə qadınların siyasətdə iştirakı – illüziyalar və reallıq. 80-ci illərin sonunda və SSRİ dağıldıqdan sonra Azərbaycanda qadınların siyasi sosiallaşması.

**MÖVZU № 5. Qender və siyasi institutlar**

Siyasi institutlarda cinslərin qeyri-bərabər təqdim olunması. Yerli hakimiyyət orqanlarında qender təqdimliyi. Qender və qərarların qəbul olunması prosesi. Qadın siyasətçiyə patriarxat baxımından yanaşma. Qadının paternalist şüuru sindromu. İslam amilinin qadının siyasi idarəetmədə iştirakına təsiri. Qadın və kişilərin siyasi idarəetməyə cəlb olunması üçün bərabər şəraitin yaradılması nümayəndəlik demokratiyasının təsdiqinin başlıca şərti kimi. Bərabər saylı

nümayəndəlik nəzəriyyəsi, kvotlaşma sistemi (sovet dövrünün neqativ praktikasının aradan götürülməsi).

Eqalitar ailə – siyasi idarəetmədə qender bərabərliyinin təmin etmək üçün vacib şərt kimi. Qadınların qərar qəbul etmə strukturlarına daxil edilmə mexanizminin yaradılmasının potensial pozitiv nəticələri (siyasətdə yeni prioritetlər). Qərbi Avropa, ABŞ, Rusiya, Türkiyənin hakimiyyət strukturlarında kişi və qadınların nümayəndəlik nisbəti.

Azərbaycanın hakimiyyət strukturlarında kişi və qadınların təqdim olunması (statistik məlumatın təhlili). Qadınların siyasi partiyalarda, ictimai -siyasi hərəkatlarda, həmkarlar təşkilatlarında fəaliyyətinin əsas istiqamətləri. Qadın problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti.

**MÖVZU № 6. İnsan hüquqlarının qender araşdırmaları**

Əsas siyasi və mülki hüquqlar: qender yanaşması. Qadınların siyasi hüquqları – tarixi xülasə. Qender əlamətinə görə insan hüququ konsepsiyalarının sosial məhdudluğu (antik dövrdən 20-ci əsrə qədər).

Kişi və qadın hüquqlarının bərabərliyi haqqında qanunlar, cinslərin bərabər imkanlarının reallaşması üzrə uzunmüddətli hərəkət proqramları. Qadınların siyasi hüquqları beynəlxalq insan hüquqları sistemində. Problemin Ümumdünya insan hüquqları Deklarasiyasında, mülki və siyasi hüquqlar Paktında, qadınlara qarşı hər növ diskriminasiya formalarının aradan qaldırılması Konvensiyasında əks olunması. Beynəlxalq təşkilatların, beynəlxalq konfransların hüquqların realizasiyasındakı rolu. Pekin konfransı.

Söz azadlığı qender mənsubiyyətindən asılı olmayaraq insan hüquqlarının reallaşmasının ən vacib vasitələrindən biri kimi. Kütləvi informasiya vasitələrinin rolu. Qərbi Avropa, ABŞ, Rusiya, Türkiyə kimi ölkələrdə qadınların siyasi və mülki hüquqlarının reallaşma vəziyyətinin xülasəsi. Azərbaycan qadınlarının öz seçki hüquqlarını reallaşdırma problemləri. Siyasi mədəniyyətin, təhsilin aşağı səviyyəsi qadınların öz hüquqlarını reallaşdırma yolunda bir maneə kimi; siyasi strukturlarda seqreqasiyanın aradan qaldırılması yolunda atılan praktiki addımlar.

***ƏDƏBİYYAT***


1 Azərbaycanda qadınlar və kişilər. Qender statistikada. 1. - B., 2000

2 Qender: qadın probleminin yeni mərhələsi. Respublika elmi-praktik konfransının materialları. - B.,1998

3 Həsənova M. Heydər Əliyev və Azərbaycan qadınları – B., 2001

4 Антология мировой политической мысли в 5 томах. - М., 1997

5 Рзаев А. - История политических и правовых учений в Азербайджане. От истоков до XX века. – Б., 2000

6 Гендерные исследования в гуманитарных науках: современные подходы. Материалы международной научной конференции (Иваново, 15 – 16 сентября 2000) –Иваново, 2000

7 Касумова Е.В., Нахичеванлы А.Г. Женщина в социальном конфликте – Б., 2000

8 Женщина. Образование. Демократия. Материалы Первой междисциплинарной научно-практической конференции (11 – 12 декабря 1998 г.). - Минск, 1999

9 Кавказская конференция женщин-лидеров. Заклю-чительный доклад. Тбилиси, ноябрь 1998

10 Лавриненко Н.В. Женщина: самореализация в семье и обществе (гендерный аспект) - Киев, 1999
11 Римашевская Н.М. Женщина в меняющемся мире - М.,1992
12 Теория и история феминизма под ред. И. Жеребки-ной –М. 1996
13 Человек в современном мире. Гендерный аспект. – Б., 2000
14 Gender Studies Mini School. Budapest, October 16 – 22, Budapest, 1999
15 Political Participation by Lester Milbath - Chicago, 1965
16 Same Difference. Feminism and Sexual Difference by Carol Lee Bacchi – Washington, 1990
17 The Dictionary Of Feminist Theory By Maggie Hamm - NY, 1991
18 Third World Women And The Politics Of Feminism. – Bloomington, 1991
19 Women in the Civil Rights Movement. Edited by Vicki Crawford. Bloomington, 1993
20 Women 2000. An Investigation Into The Status Of Women's
21 Right In Central & South Eastern Europe And The Nis. Helsinki, 2000